# Çingiz Aytmatovun “Üz-üzə” əsəri: müharibə və insan



■ Məlahət Babayeva



Mövzusu real hadisələrdən götürülmüş “Üz-üzə” povesti 1957-ci ildə çap edilmiş və Çingiz Aytmatovun ədəbiyyat dünyasında tanınması da məhz bu dövrdən başlanılmışdır. Fəlsəfi dərinliyi ilə seçilən və real hadisələr əsasında qələmə alınan bu əsərdə fərd-dövlət qarşıdurması öz əksini tapmışdır. Ç.Aytmatovun “Üz-üzə” əsəri II Dünya müharibəsi illərində arxa cəbhədəkilərin həyat mübarizəsinin aydın güzgüsüdür. Əsərdəki hadisələrin kiçik bir qırğız kəndində cərəyan etməsinə baxmayaraq, burada əhatə olunan problemlər, povestin fəlsəfi yükü ümumbəşəri səciyyə daşıyır. Çingiz Aytmatov “Üz-üzə” əsərində əvvəla millətinin tarix boyunca qazandığı sosial, mədəni, əxlaqi, bir sözlə, bütün maddi zənginliyini bədii dildə inikas etdirmişdir. Yazıçı “Üz-üzə” əsərində xalqının ağrılarını, qəhrəmanlıqlarını, təcrübələrini yazıya tökub ölümsüzləşdirmiş, müharibənin sərt qanunlarını ən inandırıcı şəkildə izah etmiş, öz ifadəsi ilə desək “tipik insan”ı ortaya qoymağa çalışmışdır. O, bu əsərində yalnız qırğız psixologiyası, duyğu və anlayış tərzini deyil, ümumbəşəri hissləri, düşüncə müstəvisini ortaya qoymuşdur.

Əsərin əsas ideyası ictimai rifahın fərdi mənfəətdən daha əhəmiyyətli olmağını göstərməkdir. Yazıçı yuxarıda qeyd etdiyimiz kimi, kiçik mühitdən çıxaraq bütün dünyaya səslənir, yalnız milli deyil, bütün bəşəriyyətin faciəsinə çevrilmiş problemlərə işıq salırdı. Onun özünün də qeyd etdiyi kimi: “Hər yazıçı bir millətin uşağıdır və o millətin həyatını izah etmək, əsərlərini öz milli ənənə və adətlərini qaynaq alaraq zənginləşdirmək məcburiyyətindədir. Mənim etdiyim də budur, yəni əvvəl öz millətimin ənənələrini və həyatını izah edirəm. Lakin yalnız bununla bir yerə çatmaq olmaz. Ədəbiyyatın milli həyatı və ənənələri izah etməkdən savayı da hədəfləri vardır. Yazıçı, üfüqünü millidən ümumbəşəriliyə doğru genişləndirmək və “universal” olana çatmaq üçün səy göstərməlidir. Yaxşı yazıçı “tipik insan” ortaya qoymaq ustalığına çatan yazardır”.

“Üz-Üzə” əsərində yazıçı İkinci Dünya Müharibəsi əsnasında cəbhədən qaçan bir əsgərin savaşın əleyhinə çıxması və insanın öz həyatını qurtarmaq üçün çəkdiyi iztirabları təsvir edir. Əsərdə kiçik bir kənddə müharibədən əvvəl xoşbəxt yaşayan bir ailədən bəhs edilir. Yeni evli bu cütlüyün həyatı müharibənin başlamasıyla tamamilə alt-üst olur. Əsərdə müharibənin insan və cəmiyyət ruhunda meydana gətirdiyi aşınmalar, xalqın ölümdirim mübarizəsi təsirli bir şəkildə təsvir edilmişdir.

Əsərin əsas leytmotivini fərari ərini qorumaq üçün  Səidənin yaşadığı qorxunc çətinliklər, hisslər təşkil edir. Kənddəki digər qadınlara cəbhədəki ərləriylə əlaqədar acı xəbər gəldikcə Səidənin yaşadığı ziddiyyətli duyğuları yazıçı onu mühakimə və tənqid etmədən adi bir insan olaraq görməyimizə nail olmuşdur:

“Səidə hər dəfə mağaradan qayıdanda Totoyun kiçik oğlu Asantayla qarşılaşırdı. Asantay yeddi-səkkiz yaşlarında uşaq idi. Əynində atasından qalma qolları yırtıq bir jaket var idi. Məsum, dağınıq baxışlı, həmişə gülümsəyən və gülümsəyərkən kobud qabaq dişləri görünərdi... Başına geyindiyi dovşan dərisi papağının altından ümidli baxışlarla Səidəyə baxırdı. Baxışları çox şeyi, hətta mümkün olmayanları belə vəd edirdi...Uzaqlardan belində gətirdiyi şələ həmin dəqiqələrdə daş kimi ağırlaşırdı. Qapıya çatmağa beş-altı addım qalmış Səidə yıxılmamaq üçün bağçanın divarına söykənmək məcburiyyətində qaldı. Belindən yükü atdıqdan sonra bir müddət qollarını sallayaraq dayandı və üzünə yapışan saçlarını düzəltməyə belə gücü çatmadı...”

Yazıçı əsərdə müharibənin insan taleyindəki rolunu acı həqiqət kimi göstərməyə nail olmuşdur. Biz burada Səidənin həm fiziki, həm mənəvi iztirab çəkdiyinin şahidi oluruq. Səidənin uzaqlardan əziyyətlə gətirdiyi şələ məsum uşağın ümid dolu sözləri ilə daş ağırlığını qazanır. Səidə uşağa da yazığı gəlir, eyni zamanda başqa torpaqlarda savaşmaq istəməyən ərinə də haqq qazandırır.

Çingiz Aytmatov əsərlərində insanları ittiham etmirdi. Yazıçı İsmayılı günahlandırmır, onun psixoloji vəziyyətini obyektiv olaraq təsvir edir və hökmü oxucunun ixtiyarına buraxır. İsmayıl artıq nəyin bahasına olursa olsun aclıqdan, ölümdən özünü qoruyan gözü heç bir şey görməyən varlığa çevrilmişdir. Psixoloji sarsıntılar, daimi qorxu və gərginlik onun mənəviyyatında sapmalara gətirib çıxarmış, insani duyğularını unutdurmuşdur. İnsani duyğuların assimilyasiyası o həddə çatır ki, İsmailin əli bir gün çarəsiz yetimlərin ruzisinə də uzanır. İsmayılın özünə verdiyi bəraət də bu yanaşmadandır: “Madam ki, heyvan kimi yaşayıram, ediləcək bir şey qalır, o da heyvan kimi hərəkət etmək!.. Hər kəs ancaq dişləyə bildiyi, qopara bildiyini yeyər!”

Səidə isə təbiətən zərif yaradılsa da son dərəcə güclü insandır. O, həm körpə övladına, həm xəstə qayınanasına baxır, tarla işlərinə çatır, özü ac qalsa belə min əziyyətlə İsmayıla yemək azuqə edir. NKVD nümayəndəsinin sorğu sualı, kənd soveti sədrinin təhqiri, döyməsi onu sındırmır. Səidə ərinə öz aləmində haqq qazandırır və nə olur olsun onun yanında olmağı özünə borc bilir. Bütün bunlarla yanaşı, Səidə digərlərinin də acısına ortaq olur, özünün çətinliyi çox olsa da, üç yetimi olan qonşuya da yardıma qaçmaqdan yorulmur.

İsmayılın qonşuların son ümid çırağı inəklərini kəsib yeməsi Səidənin səbrinin tükənməsində son damla olur. Səidə bunu biləndə bir anda çökür, saçları ağappaq olur. Ərini saxlandığı yeri əsgərlərə göstərir. İsmayıl arvadını o halda görəndə tanımaqda çətinlik çəkir. Peşman olmağa belə fürsət tapa bilmir...

“Üz-üzə” povestində bir tərəfdə imperializmə, faşizmə qarşı labüd olan müharibə- müstəqillik, azadlıq, məsuliyyət əsas götürülür. Digər tərəfdə isə həyatın müqəddəsliyi, canın dəyəri ön plana çıxır. Başqa tərəfdə isə, gənc bir qadının çətin vəziyyətdəki ərinə baxması, qıtlığa və dözülməz çətinliklərə baxmayaraq onun saxlandığı yerə yemək aparması həyatın gerçək üzü kimi göstərilir. “Üz-üzə” - insan və müharibənin, insan və mənəviyyatın sözün əsl mənasında Üz-Üzə dayanmasıdır!

kaspi.-2016.-29-31 oktyabr.-S.24.